# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 071 (7481)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

22 sentyabr 2026-cı il.
Qiymətı 1 manat

## Dövlət Suverenliyi Günü - Azərbaycanın mövcudluğunun və institusional davamlılığının əsası




6

# Antiterror əməliyyatı: 44 günü tamamlayan 24 saat



2

# Dünyada yeni neft böhranı - kim daha çox UDUZACAQ?



3

## Bütün strateji hədəflər reallığa çevrilir



5

## Dövlətə xəyanət edənlər məhkəmə qarşısında



3

## Böyük ideallardan ucuz məşhurluğa




7

## Türk dünyasının siyasi gücü və birliyi



6

## Eyni evdə, ayrı həyat: Azərbaycan ailəsində görünməyən uzaqlaşma



8

# Antiterror əməliyyatı: 44 günü tamamlayan 24 saat

***2020-ci il noyabrın 10-da 44 günlük Vətən müharibəsi üçtərəfli bəyanatın imzalanması ilə başa çatanda, xalq Qarabağın işğaldan azad olunmasını toy-bayram edəndə bəzi qüvvələr ölkə başçısının rəhbərliyi altında milli ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığı ilə əldə olunan Zəfəri ismin altı halının hər birində hallandırmaqla narazı qaldıqlarını bildirdi, böyük qələbəyə kölgə salmağa çalışdılar. Hansı ki, onlar hər zaman narazıdırlar. Razı qalacaqları gün nə vaxt olacaq, bu da məlum deyil.***



Zəfər günündən etibarən yeni mövzu atdılar meydana: bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran? Bunlar qaldı axı. Hansı Zəfərdən danışırsınız? Nə üçün müharibə yarımçıq dayandı? Bu necə müharibədir? Bu söz-söhbət o zaman danışılırdı ki, hələ Laçın, Kəlbəcər, Ağdam qarşıdakı mərhələdə qaytarılacaqdı. Və buna da həmin dairələrin nümayəndələri tərəfindən böyük inamsızlıq vardı.

Lakin düşməni 44 gün ərzində tamamilə çökdürmüşdük. Elə bu səbəbdən də ağ bayraq qaldırıb təslim olduğunu bildirmişdi. Laçın, Kəlbəcər və Ağdamın boşaldılması üçün vaxt istəmişdi. Azərbaycan dövləti isə bütün dünyaya humanistliyini nümayiş etdirərək qonşu düşmən dövlətə bütün bu olanlardan,



yaşananlardan sonra yenə də insanpərvərliklə yanaşdı və onlara torpaqlarımızdan çıxmaq üçün zaman verdi.

Düşmən 20 noyabrda Ağdamı, 25 noyabrda Kəlbəcəri, 1 dekabrda isə Laçını tərk etdi, torpaqlarımızı geri qaytardı. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun böyük bir hissəsi işğaldan azad edildi. Və həmin torpaqlarda dərhal bərpa işlərinə başlandı ki, 30 il yurd-yuvasından məcburi şəkildə köçkün düşən soydaşlarımız torpaqlarına qayıda bilsin, bir qərinəyə yaxın dövrün hicranının vüsal anı yetişsin.



Bir məsələni-"status-kvo"nun cəhənnəmə getdiyini anlamaq bu qədərmi çətin idi, yoxsa buna inamsızlıqdan doğurdu həmin söz-söhbət? Axı "Dağlıq Qarabağ Muxtar Vilayəti" artıq yox idi, dövlətimizin başçısı bunu ləğv etmişdi. Deməli, bu pərdə arxasında gizlənənlərin xülyaları da darmadağın edilmişdi. Qalırdı bircə onların Azərbaycan qanunlarına tabe olmaları-Azərbaycan torpaqlarında bu qanunlar çərçivəsində yaşamaları. Buna isə təbii ki, torpaqlarımızı qurd kimi basmış separatçı-terror qruplaşmaları imkan vermirdi. Onlar yeni münaqişələr yaratmaqla bizim torpağımızda at oynatmaq meyilində idilər.

3 il idi ki, müharibə bitsə də, problemlər davam edirdi: minalanmış ərazilərin xəritəsi verilmirdi, atəşkəs pozulurdu, Qarabağ və Şərqi Zəngəzurda tez-tez terror hadisələri törədilirdi.

Həm 44 günlük İkinci Vətən müharibəsi, həm 2020-ci ildən Qarabğda və Şərqi Zəngəzurda həyata keçirilən böyükmiqyaslı quruculuq işləri, məcburi köçkünlərimizin artıq bir qisminin ata-baba yurdlarına geri dönməsi, həm də 2023-cü ildə həyata keçirilən 23 saatlıq antiterror tədbirləri ötən 20 ildən artıq zamanın təntənəsidir. Ölkəmizin hərtərəfli inkişafını təsdiq edən Zəfərdir. Bu illərdə iqtisadi gücümüzün artmasının, dünyada tanınmağımızın, milli ordumuzu yaratmağımızın, dövlət-xalq birliyinə nail olmağımızın, milli vətənpərvər ruhlu gənclərin yetişdirilməsinin, onların torpaq sevgisi ilə böyüdülməsinin, ümumilikdə torpaqlarımızı azad etməyə qadir olduğumuzu və bunu bütün dünya qarşısında nümayiş etdirə bildiyimizin təntənəsidir.

2023-cü ilin 15 oktyabrda dövlətimizin başçısının Qarabağın digər bölgələrində də Azərbaycan bayrağını qaldırması 20 illik yekun dəyərində idi. Prezident cənab İlham Əliyevin Xankəndidəki çıxışında vurğuladığı kimi: Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır...

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror tədbirləri zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

24 saat 44 günlük müharibənin son nöqtəsi oldu. Xankəndi, Xocavənd, Xocalı, Ağdərə erməni silahlı birləşmələrindən xilas edildi. Beləliklə, suverünliyimiz bərpa olundu. Hər zaman qürur duyduğumuz Zəfərimiz və onun bizə bəxş etdiyi Suverenliyimiz.

***Mətanət Məmmədova***

# Dünyada yeni neft böhranı - kim daha çox UDUZACAQ?

## Xarici mülkiyyətli iri ticarət şirkətlərinə müvəqqəti idarəetmə tətbiq edilib

***Ötən həftənin qlobal iqtisadiyyat üçün əsas hadisələri birbaşa inkişaf edən neft böhranı - Bab əl-Məndəb boğazının bağlanması təhdidləri, Hörmüz boğazında ticarət gəmilərinə hücumlar və Səudiyyə Ərəbistanından neft ixracının demək olar ki, tamamilə dayandırılması ilə əlaqəli idi.***

Bloomberg cümə günü mənbələrə istinadən xəbər verir ki, Səudiyyə Ərəbistanının neft şirkəti Saudi Aramco oktyabr ayında Avropa neft emalı zavodlarına xam neft tədarük etməyəcək. Mənbələrə görə, Saudi Aramco ölkənin əsas Qırmızı dəniz boru kəmərinə hücum səbəbindən oktyabr ayında onlara neft tədarük etməyəcəyi barədə ən azı iki Avropa neft emalı zavoduna məlumat verib və bu qərar ”bütün Avropa müştərilərinə təsir edir”. Gündə təxminən 7 milyon barel tutuma malik Şərq-Qərb neft kəmərinin oktyabr ayında bağlanması gözlənilir. Gündə 1000 kilometr ötürmə qabiliyyətinə malik 1200 kilometr uzunluğundakı boru kəməri Səudiyyə Ərəbistanı neftini Qırmızı dənizdəki Yanbu limanına çatdırmaq üçün istifadə olunurdu və oradan yanacağın müştərilərə göndərildiyi Hörmüz boğazını keçərək həyata keçirilirdi. Qərb mediasının məlumatına görə, pilotsuz təyyarələrin hücumları boru kəmərinə xidmət edən iki nasos stansiyasına zərər vurub. Ötən cümə axşamı Hörmüz boğazında ticarət gəmilərinə edilən bir sıra hücumlardan sonra İran hakimiyyəti Hörmüz boğazını nəzarətsiz nəqliyyata açmayacağını açıqlayıb. İranın Ali Liderinin siyasi müşaviri Məhəmməd Baqer Zulqadr Hörmüz boğazının açılması şərtlərini açıqlayıb. Onun sözlərinə görə, ABŞ prezidenti Donald Tramp və İsrailin Baş naziri Benyamin Netanyahu hakimiyyətdə qaldığı müddətcə İran Hörmüzə giriş açmayacaq. O, bu şərtləri ”İran xalqının qisası” adlandırıb. Hörmüz boğazından keçən nəqliyyat gündə dörd gəmiyə düşüb. Cümə axşamı günü boğazdan ticarət gəmilərinin sayı bu qədər olub. Bu, təxminən 16 ticarət gəmisinin boğazdan keçdiyi son 10 günün orta göstəricisindən xeyli aşağıdır.

Vəziyyətə görə qlobal neft böhranı daha da şiddətlənəcək. Lakin Qərb siyasətçiləri artıq narahatlıqlarını gizlətmirlər. Məsələn, Fransa



Prezidenti Emmanuel Makron cümə axşamı günü gəmiçilik məhdudiyyətlərinin yanacaq qiymətlərini ”dözülməz” etdiyini bildirib. Fransa lideri Livan və İordaniya liderləri ilə danışıqlardan sonra sosial mediada yazıb: ”Biz Hörmüz boğazında, Qırmızı dənizdə və Bab əl-Məndəb boğazında naviqasiya azadlığının təmin edilməsinin vacibliyini vurğuladıq. Blokada gündəlik həyatımıza birbaşa təsir edir”. Baş nazirin müavini Aleksandr Novak Energetika naziri Sergey Tsivilev, Federasiya Şurası, Dövlət Duması, Kənd Təsərrüfatı Nazirliyi, Federal Antiinhisar Xidməti, Nəqliyyat Nazirliyi, regional liderlər və sənaye şirkətləri ilə müntəzəm hökumət görüşləri keçirir. Rəsmilər Rusiyanın ”lokal pozuntuların qeydə alındığı regional bazarlara yanacaq tədarükünü tənzimləməyə davam etdiyini” təsdiqləyiblər. Xüsusilə, ”Yekaterinburq, Çelyabinsk, Arxangelsk, Tver və Belqorod vilayətlərinə, eləcə də Perm və Krasnodar ərazilərinə tədarükün təmin edilməsi üçün əl ilə səylər təşkil edilib. Sankt-Peterburq və Leninqrad vilayətindəki vəziyyət də nəzərdən keçirilib”.

Bazar ertəsi günü Federal Antiinhisar Xidməti (FAS) 55 antiinhisar pozuntusu işi açıldığını bildirib. ”83 xəbərdarlıq edilib, onlardan 51-i tətbiq edilib. Qeyd edilib ki, şaquli inteqrasiya olunmuş neft şirkətləri pərakəndə yanacaq qiymətlərini əvvəlcədən razılaşdırılmış parametrlər daxilində inflyasiya səviyyəsinə yaxın səviyyədə saxlayırlar”, hökumət bildirib. Rəsmilər elan ediblər ki, ”bir tərəfdən müstəqil neft emalı zavodları və yanacaqdoldurma məntəqələri, digər tərəfdən isə Energetika Nazirliyi və FAS arasında məqbul qiymət səviyyəsini qorumağa yönəlmiş müqavilələr hazırlamağa və həyata keçirməyə davam edirlər”. ”Məqbul qiymət səviyyəsini qorumaq” məsələsi o qədər də əhəmiyyətsiz deyil. Axı, davam edən yanacaq çatışmazlığı şəraitində benzinin litri 100 rubldan xeyli çox olduğu sirr deyil.

Lakin hətta bu yüksək qiymətlərdə belə, ölkənin bəzi bölgələrində benzin praktik olaraq mövcud deyil. Məsələn, Leninqrad vilayətinin hakimiyyət orqanları hələlik yalnız gələcəkdə yerli istehlakçılara məhdud miqdarda benzin tədarükünün təmin ediləcəyinə söz veriblər. Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko bazar ertəsi, 14 sentyabrda bildirib ki, ”Məqsədimiz benzinə olan tələbatı ən azı gündə 20-30 litr həddi daxilində ödəməkdir”. Ölkə üzrə benzin qiymətləri ilin əvvəlindən (ümumiyyətlə mövcud olduğu halda) orta hesabla 21% artıb. Yanacaq inflyasiyasının ümumi istehlakçı inflyasiyasından dörd dəfədən çox yüksək olduğu sübut edilib. İctimai Rəy Fondunun (FOM) məlumatına görə, avqust və sentyabrın əvvəllərində sosioloqlara benzin qiymətlərində nəzərəçarpacaq artım barədə şikayət edən rusların payı respondentlərin 48%-i ilə 52%-i arasında dəyişib. Ötən çərşənbə axşamı FOM Rusiya Federasiyasındakı sosial əhval-ruhiyyə ilə bağlı diqqətəlayiq məlumatları dərc edib. Hazırda rusların yarıdan çoxu (56%) ölkədə həyatın növbəti 6-12 ayda yaxşılaşacağını gözləmir. Respondentlərin 23%-i isə ölkədə həyatın bu müddət ərzində pisləşəcəyinə əmindir. Ölkəmizdə 2022-ci ildən bəri belə yüksək səviyyədə pessimizm müşahidə edilməyib. Vətəndaşların maliyyə vəziyyətləri ilə bağlı qiymətləndirmələri də mənfi istiqamətdə dəyişir. Respondentlərin 28 faizi son iki-üç ay ərzində maliyyə vəziyyətlərinin pisləşdiyini, yalnız 8 faizi isə yaxşılaşma olduğunu bildirib. Maliyyə vəziyyətləri ilə bağlı bu səviyyədə mənfilik 2022-ci ildən bəri müşahidə edilməyib. Son aylarda Rusiya taxıl ixracı logistikasında baş verən fasilələr ziddiyyətli bir mənzərə yaradıb: fermerlər qış məhsulu əkininin risk altında olduğunu, rəsmilər isə xüsusi narahatlıq üçün heç bir səbəb olmadığını iddia edirlər.

***V.VƏLİLİ***

# Dövlətə xəyanət edənlər məhkəmə qarşısında

Dünyanın hansı guşəsində, bölgəsində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının ana yurdu, doğma diyarı var, o da Azərbaycandır. Ana vətənimiz olan Azərbaycan bizlər üçün müqəddəsdir. Vətən satılmır, dəyişmir və heç zaman yaşlanmır, daim cavan, hər zaman yeni və müasirdir. Ulularımızdan bizlərə əmanət qalan doğma Vətənimizi qoruyub, saxlamaq və inkişaf etdirmək bizlərin müqəddəs vəzifəmiz, amalımız və hədəfimizdir. Doğma Azərbaycanın hər halında onu sevmək və təbliğ etməliyik. Hansısa məqamda yaranan məişət problemi, nöqsan və çatışmazlıq Vətəndən üz döndərmək üçün əsas olmamalıdır. Təəssüf, min dəfələrlə təəssüflər olsun ki, elə insanlar var ki, yalnız mədəsini, ancaq cibini düşünür. Onu Vətənin mənafeyi, xalqın maraqları düşündürmür. Bir az da dərinə gedəndə, öz şəxsi ambissiyasını reallaşdırmaq üçün müxtəlif cinayətlərə şərik olur, bəzi xarici maraqlı dairlərlə Vətəninə qarşı iş birliyinə keçir. Bu cür üzüdönüklüyün isə bir adı var, vətən xainləri. Prezident Administrasiyasının keçmiş rəhbəri, AMEA-nın sabiq prezidenti Ramiz Mehdiyevin, AXCP səri Əli Kərimlinin və dəstənin digər üzvlərinin cinayət işinə nəzər yetirdikdə məlum olur ki, onlar xarici anti-Azərbaycan qüvvələrin təsiri altında olanlardır. Üzləri qara olmuş məxluqlar dövlət çevrilişi cəhdini planlaşdırmaqla xalqın qurub, yaratdıqlarını dağıtmağa çalışıblar. Hansı ki, bu dövlət böyük zəhmət hesabına qurulub. Sual olunur, Qarabağ kimi fəlakətli problemi 44 günə həll edib, adını dünya hərb tarixinə qızıl hərflə yazan Azərbaycanı fəlakətə sürükləməyə, dövləti çalxalanmalara məruz qoymaq olar? Ermənilərin maraqlarından çıxış edərək, ölkəmizlə bağlı təxribatlar planlaşırmaq olarmı? Fakt ondan ibarətdir ki, 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Ramiz Mehdiyev, Əli Kərimli, Abbas Abbasov və digərləri Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün insanların Bakı şəhərində yürüş etdikləri zaman geniş təxribat planı hazırlayıblar. Əli Kərimlinin birbaşa tapşırığı əsasında Fuad Qəhrəmanlı və digər AXCP üzvləri kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşularaq vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmağı planlaşdırmışdılar. Əgər məkrli planları baş tutsa idi, sonradan təxribatın miqyasını genişləndirərək Azərbaycan Respublikası Milli Məclisinin və ”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin inzibati binalarını ələ keçirməli idilər ki, bundan sonra kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirildiyini bəyan edəcəkdilər. Bununla bağlı Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədr müavini Fuad Qəhrəmanlı Dövlət Təhlükəsizliyi Xidmətində dindirilərkən açıq etiraflar edib. Bildirib ki, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zamanı Əli Kərimli ona və digərlərinə xüsusi tapşırıqlar verib. Tapşırıqlara əsasən, partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və ”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsinə cəhd edilməli idi. Lakin Azərbaycanın tam formalaşmış, peşəkar hüquq -mühafizə orqanları dövləti fəlakətlərə sürükləmək, xalqı yenidən sarsıntılarla üz-üzə qoymaq istəyənlərin məkrli planlarını ifşa etdilər. Artıq onların bir qismi həbs edilib, digərləri xaricdə gizləndikləri üçün haqlarında qiyabi həbs qərarı verilib. Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumata görə, Azərbaycan vətəndaşları - Ramiz Ənvər oğlu Mehdiyev, Abbas Aydın oğlu, Abbasov Əli Əmirhüseyn oğlu Kərimli Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı görülən kompleks tədbirlər nəticəsində saxlanılıblar. Həmçinin həmin cinayət işi üzrə 2025-ci ilin noyabr ayında Prezident Administrasiyasının keçmiş əməkdaşı Eldar Əmirov da saxlanılıb. İttihama görə, xarici ölkənin xüsusi xidmət orqanları tərəfindən Azərbaycandakı siyasi proseslərə müdaxilə etmək məqsədilə xarici ölkədə yaradılan ”Rusiya Azərbaycan Təşkilatları İttifaqı” adı altında qeydiyyatdan keçirilən və ”Milyarderlər İttifaqı” adlandırılan təşkilatın rəhbərləri Abbas Abbasov Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyriləri dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşiblər.



İttihamda qeyd olunub ki, Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən ”Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər” başlığı altında xarici dildə hazırladığı yazılı materialı köməkçisi Eldar Əmirov və digərləri vasitəsilə razılaşdırmaq məqsədilə Əli Kərimliyə təqdim edib. Daha sonra 2025-ci ilin oktyabr ayının 3-də sözügedən yazının yekun redaktə olunmuş nüsxəsini ”Şərq-Qərb” ASC-nin əməkdaşları vasitəsilə göndərib, qeyd olunan göndəriş texniki olaraq fiksə edilib. Ramiz Mehdiyev sözügedən şəxslərlə əlbir olub dövlət hakimiyyətinin xarici xüsusi xidmət orqanlarının köməyi ilə ələ keçirilməsi və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etməklə, xarici dövlətin nümayəndələrinə Azərbaycanın dövlət təhlükəsizliyi maraqlarına zidd kömək etməklə dövlətə xəyanət etməkdə təqsirli bilinib. Sentyabrın 21-də Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin və dəstəsinin məhkəməsi başlayıb. Cinayət işi üzrə məhkəmənin hazırlıq iclası Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Murad Aslanovun sədrliyi ilə keçirilir. Diqqətçəkən məqam ondan ibarətdir ki, Ramiz Mehdiyev özünü xəstəliyə vuraraq məhkəməyə getməkdən imtina edir. Ramiz Mehdiyev məhkəməyə müraciət edərək səhhətində problemlərin olduğunu əsas gətirib və prosesdə onlayn qaydada iştirak etmək istəyini bildirib. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Murad Aslanovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib, onlara qanunvericiliklə nəzərdə tutulmuş prosessual hüquq və vəzifələri izah edilib. Məhkəmə tərəfindən təqsirləndirilən şəxslərin müdafiə hüququnun və digər prosessual təminatlarının həyata keçirilməsi üçün zəruri şərait yaradılıb. Məhkəmənin qərarı ilə cinayət işi məhkəmə baxışına təyin edilib.

***İ.ƏLİYEV***





# YAP-ın keçdiyi şərəfli yol xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını təsdiqləyir

***Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Sabirabad rayon təşkilatının IX konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov hesabat dövründə təşkilatın fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun şəkildə həyata keçirdiyini və rayonun ictimai-siyasi həyatında fəal iştirak etdiyini deyib. O qeyd edib ki, partiya üzvlərinin ictimai fəallığının artırılması, partiya sıralarının genişləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü iş aparılıb.

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illər əldə etdiyi uğurlardan, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının bu gün də uğurla davam etdirilməsindən danışıb. O qeyd edib ki, uzun müddət işğal altında saxlanılmış torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası ilə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafında mühüm rol oynayır. Partiya Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji xətti əsas götürərək cəmiyyətin müxtəlif təbəqələrini öz ətrafında birləşdirərək ölkənin gələcək inkişafına xidmət edən layihələrə dəstək verir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yolun xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını və sarsılmaz olduğunu təsdiqlədiyini deyib. Onun sözlərinə görə, uğurlu inkişafa gedən bu yolda Azərbaycan vətəndaşları Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərirlər.

Konfransda partiya üzvləri Nadir Quliyev və Cəmilə Atakişiyeva Yeni Azərbaycan Partiyasının bugünədək xalqın və dövlətimizin taleyində mühüm rol oynadığını və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərdiyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının 2021-ci ildə baş tutan VII qurultayından sonra qarşıya qoyulan vəzifələrdən, əsas fəaliyyət istiqamətlərindən və ərazi partiya təşkilatlarının rolunun artırılmasının əhəmiyyətindən bəhs edib. Konfransda YAP Sabirabad rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Qalib Azərbaycan regionda yeni reallıqlar yaradıb





***Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Qobustan rayon təşkilatının IX konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Qobustan rayon təşkilatının sədri Qasım Qasımov hesabat məruzəsi ilə çıxış edib. O, Ümummilli Lider Heydər Əliyevin zəngin irsi və misilsiz xidmətlərindən, Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasi xəttin uğurlu nəticələrindən danışıb. Yeni Azərbaycan Partiyasının Azərbaycanın müstəqillik tarixində müstəsna rolu xüsusi vurğulanıb.

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixi nailiyyətlər əldə etdiyini deyib. Hazırda Azərbaycanın regionun lider ölkəsi olmaqla, dünya arenasında müstəqil siyasət yürüdən etibarlı tərəfdaş kimi qəbul edildiyini vurğulayıb.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov Azərbaycanın ərazi bütövlüyünün və mütləq suverenliyinin bərpasının tarixi əhəmiyyətindən danışıb. O, qalib Azərbaycanın regionda yeni reallıqlar yaratdığını deyib. Əldə olunan tarixi nailiyyətlərin Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsi olduğu diqqətə çatdırılıb. Daha sonra "Təhsil" ərazi partiya təşkilatının sədri Anar Osmanov, "Səhiyyə" ərazi partiya təşkilatının sədri Günay Muradova, "Mədəniyyət" ərazi partiya təşkilatının sədr müavini Cahangir Ağaməmmədov, "Gənclər" ərazi partiya təşkilatının sədri Əlibaba Məlikli, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Elyar Vəliyevin atası Arif Vəliyev, "Toxumçuluq" ərazi partiya təşkilatının sədri Atabəy Cahangirov çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev çıxışında Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasi mövqeyindən, eləcə də dövlətçilik ənənələrinin möhkəmləndirilməsindəki rolundan bəhs edib. Konfransda YAP Qobustan rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.



# YAP Astara rayon təşkilatının XII konfransı keçirilib



***Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Astara rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, hesabat dövründə rayon təşkilatı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində ardıcıl və sistemli iş aparıb. Partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsinin diqqət mərkəzində saxlanıldığı qeyd olunub.

Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev vurğulayıb ki, Prezident, Yeni Azərbaycan Partiyası Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət ölkənin davamlı inkişafına töhfə verir. O, Astara rayonunda həyata keçirilən abadlıq-quruculuq və sosial-iqtisadi layihələrdən geniş bəhs edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov qeyd edib ki, partiyanın milli maraqlara əsaslanan siyasi mövqeyi ölkənin davamlı inkişafına və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə xidmət edir. O, YAP Astara rayon təşkilatının hesabat dövründə fəallığı ilə seçildiyini, qarşıya qoyulan vəzifələrin icrasında partiya üzvlərinin birgə fəaliyyətinin mühüm rol oynadığını deyib.

Astara Pedaqoji Kolleci ərazi partiya təşkilatının sədri, şəhid atası Kamran Kazımov, Astara Təhsil sektoru ərazi partiya təşkilatının sədri Xədicə Əliyeva, Astara Rayon Ağsaqqallar Şurasının sədri Natiq İbadov partiyanın keçdiyi şərəfli yoldan və hesabat dövründə rayon təşkilatının fəaliyyətindən danışıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov partiyanın VII qurultayından sonra müəyyənləşdirilən prioritet vəzifələrə toxunub. Qeyd olunub ki, YAP Astara rayon təşkilatı hesabat dövründə fəaliyyətini qarşıya qoyulmuş vəzifələrə uyğun quraraq məqsədyönlü fəaliyyət göstərib.

Konfransda YAP Astara rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.





# Bütün strateji hədəflər reallığa çevrilir

***Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının XII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Konfransda YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Yeni Azərbaycan Partiyasının təsis edilməsi müstəqil Azərbaycanın siyasi tarixində mühüm hadisələrdən biri kimi qiymətləndirilir. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkənin parçalanması və məhv olmaq təhlükəsinin qarşısı alınıb, Azərbaycan sonrakı dövrdə müxtəlif sahələrdə mühüm nailiyyətlər qazanıb.

Hesabat dövründə YAP Yasamal rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə qarşılıqlı əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi istiqamətində görülən işlər barədə də ətraflı məlumat verilib.

Yasamal Rayon İcra Hakimiyyətin başçısı Elşad Həsənov partiyanın ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək xalqa layiqli xidmət nümunəsi yaratdığını deyib. O qeyd edib ki, Azərbaycan xalqı Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşərək həyata keçirilən siyasəti dəstəkləyir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli vurğulayıb ki, müstəqil Azərbaycan dövləti mühüm siyasi-ideoloji və iqtisadi-mədəni təməllər üzərində inkişaf edərək yeni hədəflərə doğru inamla irəliləyir. Sarsılmaz təməllərə söykənən xalq-iqtidar birliyi davamlı uğurların əsasıdır.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova vurğulayıb ki, ardıcıl nailiyyətlər qazanan müasir Azərbaycanın inkişafı davamlı, dinamik və hərtərəfli xarakter alıb. O əminlikdə qeyd edib ki, Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə yeni möhtəşəm uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq.

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ölkənin iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, milli həmrəyliyin güclənməsini təmin edir.

"H.Cavid pr.33a" ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini, Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Nurlan Mustafayevin anası Rahilə Ramazanova, Milli Məclisin VI çağırış deputatı Elnur Allahverdiyev, "Z.Xəlilov küç.33" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Zahid Cəfərov Azərbaycanın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və yeni reallıqlardan irəli gələn hədəflərin reallaşdırılmasının ölkəmizi yeni zirvələrə yüksəldəcəyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının ümummilli mənafeləri rəhbər tutaraq ölkədə ictimai-siyasi sabitliyin təminatçısı və dayanıqlı inkişafın aparıcı qüvvəsi kimi çıxış etdiyini deyib.

Konfransda YAP Yasamal rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP-ın fəaliyyəti milli maraqlarımızın qorunmasına hədəflənib







Sentyabrın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Cəbrayıl rayon təşkilatının X konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev hesabat məruzəsi ilə çıxış edib. O, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan Yeni Azərbaycan Partiyasının qısa müddətdə xalqın siyasi, ictimai, mədəni və intellektual inkişafında mühüm yer tutan qüvvəyə çevrildiyini deyib. Qeyd olunub ki, YAP yarandığı gündən etibarən hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf, idarəetmənin müasirləşdirilməsi istiqamətlərində fəal mövqe sərgiləyib. Partiyanın ölkənin tərəqqisi naminə mühüm addımlar atdığı və bu gün də həmin missiyanı uğurla davam etdirdiyi vurğulanıb.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Yeni Azərbaycan Partiyasının yaranmasının təkcə siyasi hadisə deyil, həm də ölkəmizin ictimai-siyasi həyatında dönüş yaradan mühüm mərhələ olduğunu deyib. O qeyd edib ki, partiyanın təsis edilməsi Azərbaycanı xaos və qeyri-sabitlikdən çıxararaq sabitlik və inkişaf yoluna yönəldən əsas amillərdən biri olub.

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan tarixi Zəfər qazanıb, ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa edib. Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri uğurla davam etdirilir. Böyük Qayıdışa dair Dövlət Proqramına uyğun olaraq, bir sıra şəhər və kəndlərimizə, o cümlədən Cəbrayıla keçmiş məcburi köçkünlərin qayıdışı reallaşıb.

Cəbrayıl rayon Ağsaqallar Şurasının sədri Vaqif Məhərrəmov, Cəbrayıl rayon təhsil sektorunun müdiri Zamiq Qurbanov, Vahid İsmayılov adına Çərəkən kənd tam orta məktəbin direktoru Arifə Əhmədova partiyanın gələcək illərdə də ölkənin inkişafına mühüm töhfələr verəcəyinə əminliklərini bildiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə partiyanın VII qurultayından ötən dövrdə görülən işlərdən danışıb, partiyanın Proqram və Nizamnamə tələblərinə uyğun olaraq yerli təşkilatların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində sistemli işlərin həyata keçirildiyini deyib. Konfransda YAP Cəbrayıl rayon təşkilatının hesabat dövründəki fəaliyyəti müzakirə olunaraq qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.





# YAP Azərbaycanın davamlı inkişafının təmin edilməsində mühüm rol oynayır



Sentyabr ayının 18-də Yeni Azərbaycan Partiyası (YAP) Ağsu rayon təşkilatının XI konfransı keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, rayon təşkilatı ötən dövr ərzində ölkənin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar tarixlərlə bağlı fəaliyyətini ardıcıl şəkildə davam etdirmişdir. Ərazi partiya təşkilatları ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi, üzvlərin ictimai-siyasi fəallığının artırılması, həmçinin gənclərin və qadınların partiya fəaliyyətində iştirakının genişləndirilməsi istiqamətində bir sıra layihələr həyata keçirilib.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov deyib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsi və müasir infrastrukturun formalaşdırılması istiqamətindəki məqsədyönlü siyasət bu gün Ağsu rayonunda da uğurla həyata keçirilir. Bu siyasətin nəticəsi olaraq rayonda son illər ərzində mühüm sosial-iqtisadi, abadlıq və quruculuq layihələri həyata keçirilmiş, yol və infrastruktur yenilənmiş, yaşayış məntəqələrində insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov Azərbaycanın son illərdə əldə etdiyi tarixi əhəmiyyətli nailiyyətlərdən bəhs edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində qlobal arenada dövlətimizin mövqeyi daha da güclənib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olunub.

Sonra Ağsu Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Nəzərov, partiya veteranı Əli Hüseynov və Təhsil işçiləri ərazi partiya təşkilatının sədr müavini Günay İnayətova çıxış ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev çıxışında Yeni Azərbaycan Partiyasının ictimai-siyasi proseslərdə fəal mövqeyi ilə seçildiyini deyib. O, qarşıya qoyulan məqsədlərin reallaşdırılmasında yerli təşkilatların fəaliyyətinə xüsusi diqqət çəkib. Konfransda YAP Ağsu rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Dövlət Suverenliyi Günü - Azərbaycanın mövcudluğunun və institusional davamlılığının əsası

20 sentyabr Azərbaycanın son 200 illik tarixinin şərəfli səhifəsidir. Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2024-cü il tarixli Sərəncamı ilə hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək. Bu əlamətdar günün təsis olunması Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyasının nəticəsi olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması ilə bağlıdır. Belə ki, bu gün - sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin erməni sepratçılarından təmizlənməsindən bir il ötür.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat 43 dəqiqə davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.



*Natəvan Əsədova, Riyaziyyat üzrə fəlsəfə doktoru*

Dövlət suverenliyi anlayışı hər bir dövlətin müstəqil mövcudluğunun fundamental əsaslarından biridir. Suverenlik dövlətin öz ərazisində ali hakimiyyətə malik olması, daxili və xarici siyasətini müstəqil şəkildə müəyyənləşdirməsi və milli maraqlarını beynəlxalq münasibətlər sistemində sərbəst müdafiə etməsi deməkdir. Azərbaycan Respublikasının Konstitusiyasında da dövlət müstəqilliyinin, suverenliyin və ərazi bütövlüyünün qorunması dövlətin əsas məqsədləri sırasında təsbit olunmuşdur. Konstitusiyanın 2-ci maddəsinə əsasən, Azərbaycan xalqının sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etmək və idarəetmə formasını müəyyən etmək suveren hüququdur.Azərbaycanın dövlət suverenliyinin bərpası uzun və mürəkkəb tarixi prosesin nəticəsi olmuşdur. 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunması dövlət suverenliyinin həmin ərazilərdə faktiki olaraq həyata keçirilməsinə imkan verməmişdi. İşğal dövründə yaşayış məntəqələri dağıdılmış, yüz minlərlə insan öz doğma torpaqlarından məcburi köçkün vəziyyətinə düşmüşdü. Bu vəziyyət Azərbaycan dövlətinin qarşısında ərazi bütövlüyünün və suverenliyinin bərpasını fundamental milli məqsəd kimi müəyyənləşdirmişdi. 2020-ci ildə baş vermiş Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində həlledici mərhələ oldu. 44 günlük müharibənin nəticəsində Azərbaycanın bir sıra işğal altında olan əraziləri azad edildi və ərazi bütövlüyünün bərpası prosesində mühüm nəticələr əldə olundu. Lakin dövlət suverenliyinin bütün ölkə ərazisində tam təmin olunması üçün proses qeyd etdiyim kimi 2023-cü ilin sentyabrında başa çatdı. Artıq Azərbaycan Respublikasının dövlət bayrağı ölkənin bütün ərazilərində dalğalanır və dövlət hakimiyyətinin hüquqi-siyasi təsir dairəsi ölkənin bütün ərazisini əhatə edir.

Dövlət Suverenliyi Gününün təsis edilməsi həm də gələcək nəsillərin tarixi yaddaşının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu tarix gənc nəslə dövlət müstəqilliyinin və suverenliyin necə böyük tarixi dəyər olduğunu aşılamaq üçün mühüm imkan yaradır. 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi də bu baxımdan xüsusi əhəmiyyət kəsb etmiş, dövlət suverenliyi və Konstitusiya ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.Bu gün Azərbaycan tam suveren dövlət kimi beynəlxalq aləmdə öz sözünü deyir. Ərazilərimizin bütövlüyü təmin olunub, sərhədlərimiz toxunulmazdır, daxili sabitlik və iqtisadi inkişaf yüksələn xətlə davam edir. Dövlət Suverenliyi Günü Azərbaycan xalqının əsrlərlə davam edən mübarizəsinin, şəhidlərimizin qanı, qəhrəman Ordumuzun rəşadəti və müdrik liderliyin bəhrəsi kimi tariximizdə əbədi yaşayacaq.

# 20 Sentyabr Azərbaycanda Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günüdür

Azərbaycan xalqının müasir tarixində elə əlamətdar günlər vardır ki, həmin tarixlər yalnız təqvimdə müəyyən olunmuş gün deyil, milli yaddaşın, dövlətçilik iradəsinin və gələcəyə inamın rəmzinə çevrilmişdir. Məhz 20 Sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü də belə mühüm tarixi günlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 20 sentyabr tarixi həm də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi müəyyən edilmişdir. 20 Sentyabr eyni zamanda Azərbaycan dövlətinin öz ərazi bütövlüyünü və suverenliyini təmin etmək istiqamətində həyata keçirdiyi ardıcıl siyasətin mühüm nəticələrindən birini ifadə edir. Bu baxımdan həmin gün xalqımızın milli iradəsinin, dövlətçilik əzminin və tarixi torpaqlarımızın dirçəldilməsi prosesinin simvolu kimi xüsusi əhəmiyyət daşıyır.Məlumdur ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uzunmüddətli və mürəkkəb tarixi prosesin nəticəsi olmuşdur. 2020-ci ildə baş vermiş Vətən müharibəsi nəticəsində Azərbaycanın bir sıra şəhər və rayonları işğaldan azad edilmiş, 2023-cü ilin sentyabrında isə Qarabağ bölgəsində dövlət suverenliyinin tam bərpası təmin edilmişdir.

2023-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xankəndi Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bu hadisə Azərbaycanın dövlət suverenliyinin bərqərar olmasının rəmzi hadisələrindən biri kimi yadda qaldı.

Xankəndidə sonrakı dövrdə sosial, təhsil, idman və digər infrastrukturların bərpasına xüsusi diqqət yetirilmişdir. Qarabağ Universitetinin fəaliyyətə başlaması şəhərin gələcək inkişafında təhsilin və insan kapitalının rolunu daha da artırmışdır. Universitetin əsas binasının və tələbə yataqxanasının təmir edilməsi, yeni təhsil və tibb infrastrukturlarının yaradılması Xankəndidə yeni həyat mərhələsinin formalaşmasının göstəricilərindəndir.

Xocalı adı da Azərbaycan xalqının yaddaşında xüsusi tarixi məna daşıyır. 2023-cü ilin sentyabrında Azərbaycanın dövlət suverenliyinin bərpası ilə Xocalı şəhərində də yeni tarixi mərhələ başlandı. 2024-cü il mayın 28-dən etibarən keçmiş məcburi köçkünlərin Xocalıya qayıdışı başlanmışdır. Şəhərdə yaşayış binalarının, sosial obyektlərin və digər infrastrukturun bərpası Böyük Qayıdışın mühüm istiqamətlərindən birini təşkil edir. Xocalı Soyqırımı Memorialının təməlinin 2024-cü il fevralın 26-da qoyulması isə faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi baxımından mühüm hadisədir. Bu gün Xocalı yalnız faciə ilə xatırlanan şəhər deyil, həm də dirçəlişin, yenidən-qurmanın və insanların öz doğma yurdlarına qayıdışının ünvanıdır.



*Fizuli Həsənov, "Milli Qəhrəmanları Tanıtma" İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri*

Xocavənd rayonu zəngin tarixi-mədəni irsi, qədim yaşayış məskənləri və təbii sərvətləri ilə Qarabağın mühüm bölgələrindən biridir. 2020-ci il Vətən müharibəsindən sonra Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir sıra kəndləri azad edilmiş, 2023-cü ilin sentyabrında isə rayonun şəhər mərkəzi də daxil olmaqla ərazidə Azərbaycanın dövlət suverenliyi tam bərpa edilmişdir. Buna görə 20 sentyabr Xocavənd şəhəri günü kimi müəyyən olunmuşdur. 20 Sentyabr beləliklə, yalnız keçmişdə baş vermiş hadisələri xatırlamaq üçün deyil, həm də bu şəhərlərin qarşısında açılan yeni inkişaf yolunu qeyd etmək baxımından əhəmiyyətlidir. Xankəndi, Xocalı, Xocavənd və Ağdərə Azərbaycanın Qarabağ bölgəsinin tarixində özünəməxsus yer tutur və onların yenidən qurulması bu tarixi şəhərlərin gələcəyinə yeni səhifə açır.

# Türk dünyasının siyasi gücü və birliyi

Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında qardaşlıq və qarşılıqlı etimad əsasında qurulan əməkdaşlıq əlaqələri gələcəyə ümidlə baxmağa əsas verir. Mövcud qlobal və regional təhlükəsizlik çağırışlarının qarşısında hərtərəfli siyasi koordinasiya və həmrəyliyin nümayişi TDT-nin güc birliyinin təzahürüdür. Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi diqqəti çəkir. Təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklər, müştərək milli-mənəvi dəyərlər türk dövlətlərini bir ailə kimi birləşdirir. Müasir dövrümüzdə TDT-yə üzv dövlətlər coğrafi baxımdan təbii nəqliyyat, logistika, tranzit xətlərini təşkil edərək, Avropa və Asiya qitələri arasında körpü rolunu oynayır. Tarixi keçmişi, dil, mədəniyyət oxşarlığı və ümumi sayı təqribən 250 milyon nəfərə çatan türk xalqlarının birliyi dünya üçün bir nümunədir.

Bu günlərdə Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxsləri ilə görüşdəki çıxışı za-



*Akif Rəfiyev, Binəqədi rayon Ağsaqqallar Şurasının sədri*

mani səsləndirdiyi fikirlər Türk dünyası ilə strateji münasibətləri bir daha ortaya qoyur. Təbii ki, Türk Dövlətləri Təşkilatının beynəlxalq arenadakı mövqeyinin möhkəmləndirilməsi istiqamətində reallaşan tədbirlər müsbət nəticə verib. "Türk Dövlətləri Təşkilatı çox böyük beynəlxalq nüfuza malik olan bir təşkilatdır. Çünki müxtəlif formatlarda müzakirə olunan məsələlər beynəlxalq gündəliyi, beynəlxalq təhlükəsizliyi, multikulturalizm, ticarət, nəqliyyat, ümumilikdə humanitar əməkdaşlıqla bağlı məsələləri əhatə edir", - deyə bildirən dövlət başçımız İlham Əliyev təxminən iyirmiillik fəaliyyətindən, təşkilatın yaradıldığı 2009-cu ildə Naxçıvanda keçirilmiş tarixi Zirvə görüşündən sonra Türk Dövlətləri Təşkilatının mühüm məsələlərin həlli və üzv ölkələr arasında qarşılıqlı əlaqələrin inkişafı, həmçinin təşkilatın beynəlxalq arenadakı mövqeyinin müəyyənləşdirilməsi və möhkəmləndirilməsi üçün öz potensialından maksimum istifadə etdiyini vurğulayıb. Türk dünyasının birliyi Azərbaycanın xarici siyasətində əsas yer tutur. Naxçıvandan başlanan yol uğurla davam edir.

Belə ki, 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvan Zirvə görüşündə saziş imzalandı və türkdilli dövlətlər arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradıldı. Naxçıvan Sazişinə əsasən, müəyyən edilmiş əsas fəaliyyət məqsədləri və vəzifələri, tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və s. məsələlərə önəm verilir. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərzində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib. Təşkilatın Naxçıvandan başlanan inkişaf yolu bu gün qlobal siyasətdə mühüm amilə çevrilir. Təşkilatın qlobal arenada vacib aktora çevirən amilləri sırasında əlbəttə ki, daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, nəqliyyat-logistika sahəsində böyük uğurlar, təbii resurslar və digər imkanlardır. Prezident İlham Əliyevin vurguladığı kimi, "Biz hamımız bunda maraqlıyıq. Təşkilata üzv ölkələrin rəhbərlərinin ümumi mövqeyi məhz ondan ibarətdir ki, beynəlxalq arenada TDT-nin rolunu və yerini gücləndirək. Bunun üçün bütün imkanlar var. Ölkələrimizin potensialı kifayət qədər böyükdür və güclənməkdə davam edir. Biz çox geniş coğrafi məkanda yerləşirik. Ərazimizdən bu gün təkcə ölkələrimiz üçün deyil, daha geniş coğrafiya üçün də mühüm rol oynayan ən vacib enerji və nəqliyyat yolları, dəhlizlər keçir". Nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyət daşıyır.

Azərbaycanın türk dövlətləri ilə konstruktiv tərəfdaşlıq münasibətlərinin qurulması ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Müasir dünyamızda türk dövlətləri arasında qurulan əməkdaşlıq daha da güclənib və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Türk birliyində təmsil olunan dövlətlər beynəlxalq təşkilatlarda eyni mövqedən çıxış edir, ölkələrin problemlərinin həllində bir-birinə dayaq olurlar. Bu gün ortaq tarix və mənəvi bağlar üzərində qurulan Türk dövlətlərinin əməkdaşlığı strateji tərəfdaşlığa və ortaq uğurlu gələcəyə çevrilib. Bu birlik, qarşılıqlı etimad gələcəkdə də regionda sülhün, sabitliyin və rifahın təminatçısı olacaq.

# Böyük ideallardan ucuz məşhurluğa

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*




***Bizim bir çoxumuzun nə zamansa, bəzilərimizin elə indi də böyük idealları olub. Əksəriyyətimiz o idealları yaşatmaq, gerçəkləşdirmək üçün çalışmışıq. Canımızı dişimizə keçirmişik, gecə-gündüz bu barədə fikirləşmişik, qazancımızı bu yolda xərcləmişik, idealımız reallaşsın deyə hər çətinliyə dözmüşük. Bizim hərbi, ədəbi, mədəni, siyasi tariximiz də böyük ideallar uğrunda yaşayan, bütün ömrünü buna həsr edən ədəblərlə, siyasətçilərlə, qələm adamları, mədəniyyət xadimləri ilə zəngindir.***

Bir vaxtlar insanları yaşadan amallar vardı: kimsə elm üçün ömrünü verirdi, kimsə ədalət uğrunda mübarizə aparırdı, kimsə yazdığı bir cümlənin, yaratdığı bir əsərin illər sonra insanlara mayak olacağına inanaraq yaşayırdı ömrünü. O insanlar özünü sübut etmək üçün, məşhur olmaq üçün deyil, tarixdə faydalı iz buraxmaq, bəşəriyyətə layiqli miras qoymaq üçün yaşayırdı.

İndi vəziyyət başqa cürdür. Daha insanın nə etdiyi, insanlığa hansı fayda verdiyi önəmsənilmir. Xidmətləri, xalqa, elmə, mədəniyyətə verdiyi faydalar yox, sosial şəbəkəsində onu neçə nəfərin izlədiyi önəm daşıyır. Daha dəyərin tərkibi, ölçüsü dəyişib: indi dəyər kitablarla, fikirlərlə, kəşflərlə, ixtiralarla, əməllərlə deyil, baxış sayı, bəyənmə və paylaşım rəqəmləri ilə hesablanır.

Məşhur olmaq arzusu hər insanın təbiətində var. İnsan varlığını sübut etmək, görünmək, tanınmaq, qəbul edilmək istəyir. Kimisi bunu dəyərlərindən uzaqlaşmadan da edə bilir, o məşhurluğunu elə, mədəniyyətə fayda verməklə, xalqa xidmət üçün istifadə edir. Amma təhlükə ondadır ki, bəzi insanlar tanınmaq üçün öz dəyərlərindən imtina etməyə başlayırlar. Onlar social şəbəkədə özlərinin inikasını yaradır, sonra o inika üstündə onu izləyən kütlə üçün olmayan, saxta bir obraz qururlar. Nə yediyini, nə geydiyini, harada dincəldiyini hərisliklə gözləyən kütləyə olmayan bir həyat izlədirlər.

Məşhurluq sehirli güzgüyə bənzəyir, həm də boy güzgüsünə. O güzgü insanın içində olanı böyüdür, görünməyən yanlarını da aşkara çıxarır, bütün çılpaqlığı ilə milyonlara göstərir. Əgər sənin içində dəyər, müqəddəs hesab etdiyin idealların varsa, onu daha çox insana çatdırır, sənin amallarını, ideallarını tanıyır insanlar, sən məşhurluğunla fayda vermis olursan. Yox, əgər içində boşluq varsa, o boy güzgüsü həmin boşluğu milyonların qarşısına çıxarır: heç bir amalı olmayan, dəyəri olmayan o insanlar beləcə məşhur olmadımı?

Ən acınacaqlısı isə budur ki, bir çox halda insanlar məşhurlaşdıqca istiqamətlərini, kimliklərini, şəxsiyyətlərini itirirlər. Bunu onlardan sosial şəbəkə alqoritmləri tələb edir: oynamalı, açıq-saçıq hərəkətlər nümayiş etdirməli, ədəbsiz tərkibdə paylaşımlar etməlidir ki, məşhurluğa qovuşa bilsin. Əvvəlcə bunu trendə düşə bilmək, diqqət qazanmaq üçün edirlər, amma zamanla bu davranış onların kimliyinə çevrilir. Biz sosial şəbəkədə məşhurlaşan çox nümunə görmüşük ki, əvvəl və sonrası bir-biri ilə təzad təşkil edib, məşhurlaşdıqdan sonra əvvəlki insan olmayıb. İstədiklərini əldə ediblər, hamı onları tanıyır, maddi imkanları, qazancları da normaldır, amma daha o adam deyillər. Abrı, həyanı məşhurluğa qurban vermək onların öz seçimi olub. Onlar üçün əhəmiyyətli olan yeganə amil bir paylaşımın yaratdığı səs-küy, tanınmaq və diqqət mərkəzində olmaq istəyidir.

Bəzən bunu indiki nəslin çatışmazlığı, seçimi kimi qələmə verirlər. Amma məncə bu, təkcə bir nəslin seçimi məsələsi deyil. Bu, həm də böyüklərin yaratdığı mühitin, ailənin, təhsilin, medianın və cəmiyyətin dəyərlərə münasibətinin nəticəsidir. Bizim bir çoxumuz övladımızı tərbiyə etmək məsələsində sinifdə qaldıq. Uşağa zəhmətin, dürüstlüyün, biliyin və məsuliyyətin əhəmiyyətini öyrətmədik, sonra onlardan böyük ideallar gözlədik. Özümüz uğuru yalnız pul, şöhrət və görünüşlə ölçürüksə, tərəzidə ədəbi, mənəviyyatı ağır gələnə deyil, maddi imkanı ağır gələnə hörmət göstəririksə, məclisin başında oturmağa alimi, müəllimi, ədibi yox, bayağı mahnısı trendə düşən arxası şar müğənnini buyur ediriksə, gələcək nəsildən başqa bir dəyər sistemi gözləməyimiz nə qədər gülməlidir, elə deyil?

Böyük ideallar insanı ucaldırdı, ucuz məşhurluq insanı öz dəyərlərindən uzaqlaşdırır. Çünki tanınmaqla qiymətli olmaq eyni şey deyil. Tarixdə qalanlar ən çox görünənlər deyil, bəşəriyyətə ən çox fayda verənlərdir. Tanınmaq, özünü ifadə etmək, diqqət çəkmək özözlüyündə qüsur deyil, ancaq bütün bunlar insanın məqsədinə çevriləndə, ucuz şöhrət qiymətli məzmunu əvəz edəndə, görünmək yaratmaqdan üstün tutulanda, bax, problem onda başlayır.

**Lalə Mehralı**

# YAP Şuşa rayon təşkilatının VII konfransı keçirilib

***Sentyabrın 19-da Yeni Azərbaycan Partiyası (YAP) Şuşa rayon təşkilatının VII konfransı keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, büstün önünə gül dəstələri düzülüb.***




Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Konfransda YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev hesabat məruzəsi ilə çıxış edib. O, partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, ötən dövr ərzində rayon təşkilatının fəaliyyətindən danışıb. Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdiyi qeyd olunub.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Məhz bu siyasətin nəticəsi olaraq, Azərbaycan tarixi Zəfər qazanıb, dövlət suverenliyini tam bərpa edib və işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu partiya sıralarının gündən-günə genişlənməsinin, sosial bazasının daha da möhkəmlənməsinin Heydər Əliyev ideyalarına etimadın və Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinə dəstəyin bariz nümunəsi olduğunu deyib. O qeyd edib ki, bu gün istər ölkə daxilində, istərsə də regionda lider partiya olan Yeni Azərbaycan Partiyası beynəlxalq əlaqələrdə də böyük uğurlara imza atıb.

Daha sonra Birinci Qarabağ Müharibəsi qazisi Elxan Ələkbərli, Şuşa Humanitar Kollecinin direktoru Mehriban Qasımova, 41 saylı ərazi partiya təşkilatının sədri, Şuşa şəhər 1 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözəlova və Şuşa rayon Statistika İdarəsinin rəisi Anar Xəlilov çıxış edərək Yeni Azərbaycan Partiyasının bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacağına əminliklərini ifadə ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə isə rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə işin səmərəli təşkili və partiya üzvlərinin ictimai fəallığının artırılması istiqamətində görülən işlərdən danışıb.

Konfransda YAP Şuşa rayon təşkilatının hesabat dövründəki fəaliyyəti müzakirə olunaraq qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib. Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.



# Eyni evdə, ayrı həyat:

## Azərbaycan ailəsində görünməyən uzaqlaşma

***Ailə deyəndə göz önünə adətən eyni evdə yaşayan, birlikdə süfrəyə əyləşən, övlad böyüdən ər-arvad gəlir. Lakin eyni evdə yaşamaq həmişə birlikdə yaşamaq demək deyil. Bəzən ailə zahirən öz mövcudluğunu qoruyur, nikah davam edir, uşaqlar böyüyür, gündəlik həyat əvvəlki kimi görünür, amma ər-arvad arasında münasibət tədricən dəyişir.***

SİA mövzu ilə bağlı araşdırma edib. Bir vaxtlar uzun-uzadı söhbət edən insanlar artıq bir-birinə gün ərzində baş verənləri danışmır. Birlikdə vaxt keçirmək azalır, problemlər müzakirə olunmur, ortaq qərarlar getdikcə daha az verilir. Hər kəs öz işi, telefonu, dostları və şəxsi dünyası ilə məşğul olur. Evdə iki insan yaşayır, amma onların həyatları sanki ayrı istiqamətlərdə davam edir.

Ailə münasibətlərində bu vəziyyət bəzən ”emosional uzaqlaşma” və ya ”emosional boşanma” anlayışı ilə izah olunur. Burada söhbət hüquqi boşanmadan getmir. Ər-arvad rəsmi olaraq hələ də ailədir, lakin aralarındakı emosional bağlılıq, ünsiyyət və yaxınlıq zəifləyir.

Məsələni maraqlı edən də budur: Azərbaycanda boşanmalar barədə rəsmi statistika aparılır, amma nikahı davam etdiyi halda bir-birindən emosional olaraq uzaqlaşan ailələrin sayı ayrıca ölçülmür.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin ilk yarısında Azərbaycanda 24 815 nikah və 10 350 boşanma qeydə alınıb. 2026-cı ilin ilk altı ayında isə nikahların sayı 19 224, boşanmaların sayı 9 776 olub. Yəni bu ilin ilk yarısında həm nikahların, həm də boşanmaların sayı ötən ilin eyni dövrü ilə müqayisədə azalıb. Bu rəqəmlər yalnız rəsmi nikah və boşanmaları göstərir. Ailənin daxilində münasibətlərin hansı vəziyyətdə olduğunu isə statistika ilə müəyyən etmək mümkün deyil.

Məsələn, bir ailədə ər və arvad arasında mübahisə ola bilər, amma onlar hələ də bir-birinin həyatında fəal iştirak edə bilərlər. Başqa ailədə isə heç bir ciddi mübahisə olmur. Sadəcə danışmırlar. Bir-birindən heç nə soruşmurlar, birlikdə vaxt keçirmirlər və münasibətlərini yalnız uşaqların, evin və gündəlik öhdəliklərin ətrafında davam etdirirlər. Əslində, ailə daxilində ən böyük dəyişikliklərdən biri də məhz bu səssiz mərhələdə başlaya bilər.

Münasibətlər üzrə mütəxəssislərin diqqət çəkdiyi məsələlərdən biri də ünsiyyətin azalmasıdır. Əvvəllər ər-arvad gün ərzində baş verənləri bir-biri ilə bölüşürdüsə, zaman keçdikcə bu ehtiyac aradan qalxır. ”Necəsən?”, ”Günün necə keçdi?” kimi sadə suallar belə münasibətdə əvvəlki yerini itirir.



Bunun səbəbi isə təkcə tərəflərdən birinin digərinə qarşı hisslərinin dəyişməsi olmaya bilər.

Məişət yükünün bölüşdürülməməsi də münasibətlərə təsir edən amillərdən biridir. Xüsusilə uşaqlı ailələrdə ev işləri, uşağın qayğısı, bağça və məktəb məsələləri, alış-veriş, yemək hazırlamaq və digər gündəlik işlərin əsas hissəsinin bir tərəfin üzərində qalması zamanla narazılıq yarada bilər.

BMT Qadınların məlumatlarında Azərbaycanda 15 yaşdan yuxarı qadınların ödənişsiz ev və qayğı işlərinə sərf etdiyi vaxt kişilərlə müqayisədə əhəmiyyətli dərəcədə çox göstərilir. Bu göstərici birbaşa ailədaxili problemlərin səbəbini izah etmir, amma ev və qayğı işlərinin bölgüsündə gender fərqinin olduğunu göstərir.

Dünyanın müxtəlif ölkələrində də ailə daxilində məsuliyyət bölgüsü müzakirə olunan məsələlərdəndir. ABŞ-da aparılan araşdırmalar göstərir ki, gəlirlərin ər-arvad arasında daha bərabər bölüşdürüldüyü ailələrdə belə ev işləri və uşaqlara qayğı məsələsində tam bərabərlik həmişə yaranmır.

Bu isə bir məqamı ortaya çıxarır: ailədə problem yalnız ”kim daha çox pul qazanır?” sualından ibarət deyil. ”Kim nə qədər məsuliyyət daşıyır?” sualı da münasibətlərin gələcəyi baxımından əhəmiyyətlidir. Azərbaycan ailəsində isə bütün bunlara əlavə olaraq sosial münasibətlər də təsir göstərə bilər.

Bəzi ailələrdə ər-arvad arasında yaranan problemin həlli yalnız iki insanın qərarı ilə məhdudlaşmır. Valideynlərin, qayınata-qayınananın, bacı-qardaşların və digər qohumların münasibətə müdaxiləsi də mümkündür. Bəzən ailəni qorumaq məqsədilə verilən məsləhətlər problemin həllinə kömək edir, bəzən isə tərəflərin öz qərarını verməsini çətinləşdirir.

”Uşağa görə döz”, ”ailə dağılmasın”, ”camaat nə deyər?” kimi yanaşmalar da boşanmaq qərarına təsir göstərə bilər. Bu cür sosial təzyiqin bütün ailələr üçün eyni olduğunu söyləmək olmaz. Lakin ailə münasibətlərində sosial gözləntilərin mühüm rol oynadığı danılmaz məsələlərdəndir. Maraqlı məqam odur ki, ailənin dağılması həmişə boşanma ərizəsinin verildiyi gün başlamır.

Bəzən proses bundan illər əvvəl başlayır. Əvvəlcə birlikdə keçirilən vaxt azalır. Sonra söhbətlər. Daha sonra problemlərin müzakirəsi dayanır. Tərəflər bir-birindən nəsə gözləməyi dayandırır. Nəticədə ailə yalnız ortaq yaşayış məkanına və gündəlik öhdəliklərə çevrilə bilir.

Xarici tədqiqatlarda da emosional uzaqlaşma məhz bu kontekstdə araşdırılır. Məsələn, Türkiyədə aparılmış son tədqiqatlardan birində nikah davam etdiyi halda ər-arvad arasında emosional əlaqənin zəifləməsi ayrıca araşdırılıb. Müxtəlif beynəlxalq araşdırmalarda da yaxınlığın, ünsiyyətin və ortaq fəaliyyətlərin azalması emosional uzaqlaşma ilə əlaqələndirilir.

Lakin burada diqqətli olmaq lazımdır. Ayrı-ayrı ölkələrdə aparılan bu araşdırmaların nəticələrini birbaşa Azərbaycan cəmiyyətinə tətbiq etmək mümkün deyil. Ailə modeli, iqtisadi vəziyyət, sosial normalar və gender rolları ölkədən ölkəyə dəyişir.

Azərbaycan üçün isə ayrıca araşdırılmalı məsələ məhz budur: biz ailənin dağılmasını yalnız boşanma statistikası ilə ölçürük, yoxsa ailənin daxilində münasibətlərin vəziyyətinə də baxırıq?

Çünki rəsmi nikahın davam etməsi ailədə münasibətlərin sağlam olduğu anlamına gəlmir. Ər və arvad eyni evdə yaşayırsa, bu, onların mütləq birlikdə həyat sürdüyünü göstərmir.

Eyni süfrəyə oturmaq, eyni övladı böyütmək, eyni mənzildə yaşamaq ailənin hüquqi və məişət tərəfini qoruyur. Amma ailənin emosional tərəfi üçün ünsiyyət, qarşılıqlı diqqət, məsuliyyət bölgüsü və birlikdə vaxt keçirmək də lazımdır. Bəlkə də bu səbəbdən ailə məsələsinə yalnız ”boşanma artıb, yoxsa azalıb?” sualı ilə yanaşmaq kifayət etmir. Daha ciddi sual başqadır: Azərbaycan ailəsində insanlar həqiqətən birlikdə yaşayırlar, yoxsa sadəcə eyni evdə qalırlar?

Bu suala cavab vermək üçün isə yalnız statistika kifayət etmir. Bunun üçün ailə psixoloqlarının, sosioloqların, hüquqşünasların fikirlərinə, eləcə də belə vəziyyəti yaşayan insanların real hekayələrinə baxmaq lazımdır. Çünki bəzən ailənin ən böyük problemi boşanmaq deyil. Ən böyük problem iki insanın bir-birindən uzaqlaşdığı halda bunu illərlə heç kimin görməməsidir.

***Ayşən Vəli***

## ELAN

Yeni Azərbaycan Partiyası Ağstafa rayon təşkilatı tərəfindən Tağızadə Rəşad Aydın oğluna (164807), Məmmədova Etera Məhəmməd qızına (243140), Əliyev Abı Əlibala oğluna (698233) verilmiş üzvlük vəsiqələri itdiyi üçün etibarsız sayılır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyli**
**küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**